# GDU-da ikili diplom proqramı üzrə qəbul olmuş tələbələrlə görüş keçirilmişdir

**Gəncə Dövlət Universiteti (GDU) və Türkiyənin Dokuz Eylül Universiteti arasında imzalanmış müqaviləyə uyğun olaraq ikili diplom proqramı üzrə 2023-2024-cü tədris ilində biologiya ixtisasına qəbul olmuş tələbə və onların valideynləri ilə görüş keçirilmişdir.**



Görüşdə GDU-nun rektoru, professor Yusif Yusibov çıxış edərək tələbələri təbrik etmiş və ikili diplom proqramının üstünlüklərindən danışmışdır. Qardaş ölkənin nüfuzlu universitetinin diplomunu əldə etmək imkanını tələbələr üçün böyük şans adlandıran rektor yaxın gələcəkdə proqram çərçivəsində görüləcək işlərdən söhbət açaraq bildirmişdir ki, tələbələr beynəlxalq akkreditasiyadan keçmiş ixtisaslar üzrə ilk iki tədris ilini Dokuz Eylül Universitesində, növbəti iki ili isə Gəncə Dövlət Universitetində təhsil alacaqlar. Sonra universitetin innovasiyalar departamentinin rəhbəri Vasif Həsənov və Kimya-biologiya fakültəsinin dekanı İsfəndiyar Alverdiyev proqramın təhsil sahəsində yaratdığı imkanlardan danışmışlar.

Görüşdə qeyd edilmişdir ki, ikili diplom proqramı üzrə biologiya ixtisasına qəbul olmuş tələbələr oktyabrın 2-dən Dokuz Eylül Universitesində təhsil almağa başlayacaqlar. Sonda görüş iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.-23 sentyabr.- S.8.